2021-ci il ELMİ-TƏDQİQAT üzrə Yaponiya Dövlət Təqaüd proqramı (Tədqiqatçı, Magistr və Doktorantura təhsili)

Proqrama sənəd qəbulu davam edir!

Sənəd qəbulu 4 sentyabr, 2020-ci ilədək davam edəcək!

Qeyd: Səfirliyimiz hal-hazırda əsasən distant iş rejimində çalışdığı üçün müəyyən müddət proqram haqqında olan suallarınızı yalnız mail vasitəsilə qəbul edə və cavablandıra biləcəyik. Odur ki, elanı oxuduqdan sonra hər hansısa sualınız yaranarsa, səfirliyimizin culture-info@bk.mofa.go.jp və **info@bk.mofa.go.jp (hər ehtimala hər iki mail ünvanına göndərməyinizi tövsiyə edirik) mail ünvanlarına yönləndirməyinizi xahiş edirik.**

Qeyd: Yeni koronavirusun yayılması kimi səbəblərdən qeyd olunan imtahanın keçirilmə vaxtında dəyişikliklər edilə bilər və ya ləğv oluna bilər. Eyni zamanda, gələcəkdə proqramdan seçilən şəxslərin təyyarə olmaması və ya digər fövqaladə halların baş verməsi səbəblərindən Yaponiyaya gedə bilməməsi halları baş verə bilər. Öncədən anlayışınızı və bunu nəzərə almağınızı xahiş edirik.

VACİB: Sənəd qəbulunun elan olunması 4 iyun, 2020-ci il tarixindən olsa da, **sənədlərin qəbuluna (müraciətçilərin sənədləri səfirliyə gətirərək təhvil verməsi) 1 iyul, 2020-ci il tarixindən** başlanılacaqdır. İyun ayı ərzində səfirlikdə sənəd qəbulu həyata keçirilməyəcəkdir (xüsusi karantin rejiminin tətbiq olunması, müraciətçilərin sağlamlıq və təhlükəsizliyi məsələlərini nəzərə alaraq). Odur ki, sənədləri ən tez 1 iyul, 2020-ci il tarixindən başlayaraq səfirliyə gələrək təhvil verə bilərsiniz. Mail vasitəsilə sənəd qəbul olunmayacaqdır. Sənəd qəbulunun vaxtı və qəbul üsulu ilə bağlı suallarınız olarsa səfirliyin mail ünvanına yazaraq əlaqə saxlamağınız xahiş olunur.

MÜNDƏRİCAT

A) Təqaüd proqramı haqqında (proqramın məzmunu, müraciətçiyə olan şərtlər)….....1
B) Seçim prosesinin gedişatı…….....4
C) Müraciət üçün lazım olan sənədlər……..…..9
D) Digər tez-tez soruşulan suallar……..…15
E) Əlavə məlumat…… ……. ……..…...16

A) Təqaüd proqramı haqqında (proqramın məzmunu, müraciətçiyə olan şərtlər)

Nə proqramıdır?	*Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya* Nazirliyinin (MEXT) xarici tələbələr üçün təqdim etdiyi Yaponiya universitetlərində magistr və ya doktorantura (ilk öncə qeyri-dərəcə proqramı olan "Tədqiqatçı tələbə" statusu olub, Yaponiyaya getdikdən sonra rəsmi tələbə statusu üçün qəbul prosesi olacaqdır) təhsili üçün nəzərdə tutulmuş tam təqaüd proqramı
Proqramın rəsmi "Təlimat kitabçası"	İngilis dilində Yapon dilində ※Proqram haqqında ən detallı məlumat bu kitabçalardadır. **Azərbaycan dilindəki bu izahat sənədində bütün məqamlara ətraflı toxunulmadığı üçün proqramın rəsmi kitabçalarını mütləq oxumağınız xahiş olunur.**

Niyə məhz Yaponiya?	👍 Dünyanın ən qabaqcıl texnologiya, elm ölkələrindən birində təhsil ☺ Yaponiyada təhsil üçün yapon dili biliyiniz vacib deyildir. ✌ Yaponiyada 800-dən çox universitet vardır və onlardan 20-i dünyanın ilk 200-lüyündədir. Tokio və Kioto universitetləri isə reytinqinə görə dünyada ilk 50-liyə düşür. 👍 Hal-hazırda Yaponiyada 150.000-dən çox xarici tələbə təhsil alır və Yaponiya hökuməti 2023-cü ilədək xarici tələbələrin sayını 300.000-dək artırmağı planlaşdırır. *Daha çox bilmək istəyirsiniz?* Yaponiyanın təhsil sistemi və Yaponiya həyatı haqqında maraqlı məlumatlar ala bilərsiniz: https://www.jasso.go.jp/en/study_j/search/index.html https://www.jasso.go.jp/en/study_j/__icsFiles/afieldfile/2019/05/16/sgtj_2019_e.pdf https://www.jasso.go.jp/en/study_j/search/globaldialogue.html https://www.jasso.go.jp/en/study_j/sgtj.html
Niyə məhz MEXT Təqaüdü?	**MEXT Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinin** qısaldılmış adıdır. 👍 Yaponiyanın ən tanınan dövlət təqaüdü 👍 Təqaüd nələri əhatə edir? 🖃 ① *Yaponiyaya gediş və qayıdış aviabiletləri* ② *Təhsil haqqından azad olma* ③ *Aylıq təqaüd (Tədqiqatçı tələbələr (non-degree): 143000 yapon yeni;* *Magistr tələbələri: 144000 yapon yeni ;* *Doktorantura tələbələri: 145000 yapon yeni*
Proqramın (təqaüdün) müddəti **VƏ** **Hansı səviyyələr üzrə təhsil almaq olar?**	*Təqaüdün müddəti:* **sentyabr və ya oktyabrın əvvəlləri, 2021-ci il〜martın sonu, 2023-ci il =2 il** *Qeyd 1:* Burada qeyd olunan təqaüd müddəti *"Tədqiqatçı tələbə" (Research Student)* kimi "Qeyri-dərəcə proqramı üzrə tələbə" ("non-degree student") statusunda olduğunuz müddəti göstərir. Lakin, Yaponiyaya getdikdən sonra dərəcə proqramları olan magistratura və ya doktorantura pillələrinə keçməklə uzadıla bilər. *Qeyd 2:* Öncəki illərdən fərqli olaraq bu ilki seçimlərdə yalnız sentyabr/oktyabr (payız) semestrinə qəbul nəzərdə tutulmuşdur. Yəni, *qəbul olan tələbə Yaponiyada təhsilinə 2021-ci ilin aprel ayında deyil, sentyabr-oktyabr aylarında başlayacaqdır.* *Qeyd 3:* Əgər tələbənin təhsili 2021-ci il sentyabr ayının 1-dən başlayırsa, təqaüd 2021-ci il sentyabr ayından verilməyə başlanacaqdır. Təhsil ilinin başlanması 2 sentyabr- 30 sentyabr, 2021-ci il tarixlərinə təsadüf edəcək tələbələrə təqaüdün verilməsi 2021-ci ilin oktyabrdan baş tutacaqdır. Təhsilin başlayacağı gün universitetdən asılı olaraq dəyişə bilər. *Qeyd 4:* "*Tədqiqatçı tələbə"* statusu üzrə təhsil zamanı ehtiyac olan şəxslərə ilk 6 ay "Yapon dili üzrə hazırlıq proqramı" keçiriləcəkdir. *Qeyd 5:* Bəzi hallarda (akademik biliyiniz qəbul olunacağınız universitet tərəfindən məqbul hesab olunarsa, elmi rəhbəriniz birbaşa magistratura və ya doktorantura pilləsindən təhsilinizi başlamağınızı istərsə və s. kimi hallar) **birbaşa magistratura və ya doktorantura pilləsindən təhsilinizin başlanması** mümkündür. Lakin, bununla bağlı son qərar universitetiniz və MEXT tərəfindən veriləcəkdir.. Hər pillə üzrə təqaüd proqramının müddəti: **Magistratura pilləsi:** *2 illik təhsil* (bəzi universitetlərdə təhsil müddəti 2 ildən az ola bilər) **Doktorantura pilləsi:** *3 illik təhsil* (bəzi ixtisaslarda bu müddət bir qədər uzun ola bilər)

<table>
<tr><td>Təqaüd müddətini uzatmaq mümkündür?</td><td colspan="2">Bəli, təqaüd proqramına qəbul əksər hallarda “Tədqiqatçı tələbə” mərhələsindən olub, seçimlərdən müvəffəq olmaqla Magistratura, daha sonra Doktorantura pilləsinədək uzadıla bilər. “Tədqiqatçı tələbə” olaraq verilən müddət 2 il olsa da, siz Yaponiyaya getdikdən 6 ay, 1 il və ya 1.5 il sonra universitetin seçim prosesindən keçərək magistratura və doktorantura pilləsinə irəliləyə bilərsiniz (2 illik “Tədqiqatçı tələbə” proqramınızın bitməsini gözləmədən). Bunun üçün, ilk növbədə elmi rəhbərinizlə məsləhətləşməyiniz və universitetinizin magistratura və ya doktorantura üçün seçim prosedurları (seçim imtahanı, müsahibə, sənəd qəbulu və s.) ilə maraqlanmağınız xahiş olunur.
Bu barədə daha ətraflı məlumat rəsmi “Guidelines” sənədində qeyd olunmuşdur. İngilis dili (səh. 9-da 13-cü bölmə); Yapon dili (səh.9 13-cü bölmə)</td></tr>
<tr><td>Hansı ixtisaslar üzrə təhsil almaq olar?</td><td colspan="2">İxtisas seçimi müraciətçinin təhsil aldığı ixtisas və ya onunla əlaqəli sahədə olmalıdır. Eyni zamanda, Yaponiya universitetində tədris edə və tədqiqat apara biləcəyi sahə olması da vacibdir.

Qeyd 1: Digər vacib məqam isə sizin təhsil almaq istədiyiniz ixtisas üzrə Yaponiyada professorun olub-olmaması olduğu üçün, nadir ixtisaslar olarsa öncədən araşdırma aparmağınız məsləhətlidir. Sənədin 8-ci səhifəsində Yaponiyadakı universitetlər və ya ixtisaslar barədə araşdırma edə biləcəyiniz bəzi saytlar qeyd olunmuşdur.

Qeyd 2: Bu təqaüd proqramı ilə yapon ənənəvi incəsənət nümunələri olan Kabuki, klassik yapon rəqsləri kimi xüsusi texnika və təlimlər tələb olunan sahələrdə təhsil mümkün deyildir.</td></tr>
<tr><td rowspan="3">Kimlər müraciət edə bilər?</td><td>Yaş həddi</td><td>1986-cə il 2 aprel və ondan sonrakı tarixlərdə anadan olmuş şəxslər</td></tr>
<tr><td>Milliyyət</td><td>Ancaq Azərbaycan vətəndaşları proqrama müraciət edə bilərlər.</td></tr>
<tr><td>Müraciətçiyə olan digər şərtlər</td><td>• Yekun kurs tələbələri (bu il bakalavr və ya magistr pilləsini bitirməyi planlaşdıran) ~ 35 yaşa qədər olan digər şəxslər
• Yapon dilini öyrənməyə böyük maraq göstərən, Yaponiyaya marağı olan və gəldikdən sonra həmin ölkə haqqında biliklərini artırmaq istəyən şəxslər. Eyni zamanda, tədqiqat müddətində Yaponiya həyatına tez uyğunlaşa biləcək şəxslər.
• Əqli və fiziki cəhətdən sağlam olan şəxslər.

Qeyd: Hərbçi olan şəxslər yalnız 2021-ci ilin sentyabr ayınadək həmin işdən ayrılmağı planlaşdırdıqları halda proqrama müraciət edə bilərlər. Müraciət zamanı mütləq Yaponiya Səfirliyinə HƏRBÇİ olduğunuzu qeyd etməyiniz gərəkdir.

☆ Müraciətçilərə olan digər şərtlər haqqında daha ətraflı “Təlimat Kitabçasında” (ingilis dili, yapon dili)</td></tr>
<tr><td>Neçə nəfər seçiləcək?</td><td colspan="2">Bu ilki proqram üzrə neçə nəfər seçiləcəyi haqqında məlumat hələ ki yoxdur.</td></tr>
<tr><td>Keçən il bu proqram üzrə neçə nəfər keçib?</td><td colspan="2">Keçən il bu proqram üzrə 3 nəfər Yaponiyaya getmişdir. Son illər ərzində Azərbaycandan hər il 3 nəfər bu proqramla Yaponiyada təhsil almaq şansı əldə etmişdir. Bu saya “tədqiqatçı tələbə”, magistratura və doktorantura pilləsindən təhsilə başlayan tələbələr daxildir.</td></tr>
</table>

B) Seçim prosesinin gedişatı

Sənəd qəbulunun elan olunması **(5 iyun)** → **İlkin sənəd qəbulunun son tarixi** **(4 sentyabr)** → İlkin sənədlərə baxış və imtahan mərhələsinə keçmiş şəxslərin elan olunması **(8 sentyabr)** → **Yazılı imtahan** **(12 sentyabr)** → Yazılı imtahan nəticələrinin elan olunması → **İmtahandan keçən şəxslərin qalan sənədləri təqdim etməsi üçün son tarix:** **(18 sentyabr)**

Müsahibə **(23 sentyabr)** → 1-ci mərhələ- Səfirlik mərhələsindən keçmiş şəxslərin elan olunması **(2 oktyabr)** → **1-ci Seçim Mərhələsindən keçmiş şəxslərin Yaponiya universitetləri ilə *qəbul almaq üçün* əlaqə saxlaması** **Son tarix:** **(20 noyabr)** → Universitetlərdən həmin şəxslərə *"Qəbul məktubunun" (skan və ya orjinal)* verilməsi üçün **son tarix:** **(25 dekabr)** → ***"Qəbul sənədləri"* və *"Təhsil almaq istədiyiniz universitetlərə dair seçim forması"* sənədinin səfirliyə təqdim olunması Son tarix:** **(4 yanvar)**

2-ci Seçim Mərhələsi: MEXT (Yaponiya Baş İdarəsi) Seçim Mərhələsi **(fevral-mart)** → Yekun qərar olaraq **müvəffəq olan şəxslərin elan olunması** **(iyun)** → **Qəbul olan şəxslərin Yaponiyaya yola düşməsi** **(sentyabr-oktyabr)**

Qeyd 1: Burada qeyd olunan tarixlərdə dəyişiklik baş verə bilər. Öncədən anlayışınızı xahiş edirik. Sənəd qəbulu və ya digər mərhələlərdəki prosedurlar və ya onların tarixləri ilə bağlı vacib dəyişikliklər səfirliyimizin rəsmi internet səhifəsi və rəsmi Facebook səhifəsində elan olunacaqdır. Həmin səhifələri mütəmadi olaraq izləməyinizi tövsiyə edirik.

Proqramın elan olunması və Sənəd qəbulunun başlanması	4 iyun, 2020-ci il
Hansı sənədləri təqdim etmək lazım olacaq?	Lazım olan sənədlərin *dəqiq siyahısı* və *hansı məqamda təqdim etmək lazım olması* barədə ətraflı məlumat üçün aşağıda **"C) Müraciət üçün lazım olan sənədlər"** bölməsinə nəzər sala bilərsiniz.
Sənədləri **hara** təqdim etmək lazımdır?	Sənədləri Yaponiya Səfirliyinə təqdim etmək lazımdır.
Sənədləri **hansı üsulla** təqdim etmək olar?	**Sənədləri SƏFİRLİYƏ GƏLƏRƏK TƏHVİL VERMƏK lazımdır.** Sənəd qəbulunun elanı 4 iyun, 2020-ci il tarixindən olsa da, **səfirlik tərəfindən sənədlərin qəbul olunmasına 1 iyul, 2020-ci il tarixindən** başlanacaqdır. Yəni, **sənədləri təhvil vermək üçün ən tez tarix: 1 iyul, 2020-ci ildir.** Sənəd qəbulu üçün **orijinal sənədləri** səfirliyə gələrək təqdim etməyiniz gərəkdir.

	Xüsusi karantin rejiminin uzadılması və distant iş rejiminin davam etdirilməsi səbəbindən bu tarixdə dəyişiklik edilə bilər. Bunu öncədən nəzərə almağınızı və bizim yeni elanlarımızı səfirliyin rəsmi internet səhifəsi və Facebook səhifəsindən izləməyinizi xahiş edirik. *Qeyd :* Əgər müraciət üçün sizin gəlməyiniz qeyri-mümkün olarsa, sənədləri sizin yerinizə başqa şəxs də təqdim edə bilər. Gələn şəxsin şəxsiyyət vəsiqəsini təqdim etməsi gərəkdir. Bu zaman "Müraciət forması" sənədinin sonunda öz imzanızı atmağı unutmayın. Lakin, sənəd qəbulu zamanı sənədlərə yerində baxış keçirilməsi və hər-hansısa çatışmamazlıq olarsa bildirilməsi nəzərdə tutulduğu üçün mümkün qədər müraciətçilərin özlərinin yaxınlaşmağını xahiş edirik. Təqdim etdiyiniz sənədlərdə çatışmamazlıq olarsa, sizdən sənədləri tamamlayıb yenidən təhvil verməyiniz xahiş oluna bilər. Müraciət üsulu ilə bağlı digər suallarınız olarsa, mail vasitəsilə əlaqə saxlayıb məsləhətləşməyinizi xahiş edirik: ✉ **culture-info@bk.mofa.go.jp**
İlkin mərhələ **sənəd qəbulu** **Son tarix:** ***4 sentyabr***	4 sentyabr (cümə) saat 17:00-dək *Qeyd:* Sənəd qəbulu iki mərhələdə aparılacaq. Bütün müraciətçilərin təqdim etməli olduğu sənədlər üçün olan son tarixdir. *Daha ətraflı məlumat:* **"C) Müraciət üçün lazım olan sənədlər"** bölməsində
Sənədlərə baxış və imtahan mərhələsinə keçmiş şəxslərin elan olunması (8 sentyabr)	İlkin sənəd qəbulundan sonra səfirlik nümayəndələri tərəfindən sənədlərə baxış keçiriləcəkdir. Yalnız proqrama qəbul şərtlərinə uyğun gələn şəxslər növbəti, yəni **imtahan mərhələsinə** irəliləyəcəklər. İmtahan mərhələsinə irəliləmiş şəxslərlə mail vasitəsilə əlaqə saxlanılacaqdır. Hal-hazırda nəticələrin elan olunması **8 sentyabr** tarixinə planlaşdırılır.

Yazılı Imtahan 12 sentyabr (ŞƏNBƏ)	**Hansı imtahanlar olacaq?**	*Yapon dili (120 dəqiqə)* *İngilis dili (90 dəqiqə)*
	İmtahan saatları	*Dəqiqləşdirildikdən sonra bütün müraciətçilərə mail vasitəsilə bildiriləcək.*
	İmtahan məkanı	İmtahan məkanı hələ dəqiqləşməmişdir. Məkan imtahan mərhələsinə irəliləyəcək müraciətçilərə mail vasitəsilə bildiriləcək.
	Maksimum bal neçədir?	Yapon dili üzrə 300 bal İngilis dili üzrə 100 bal *Qeyd:* Minimal keçid balı açıqlanmır.
	Hər iki imtahanda iştirak vacibdir?	Bəli, müraciətçilərin hər iki imtahanda iştirak etməsi vacibdir. İki imtahandan hər hansısa birində iştirak etməsəniz və ya imtahanın "Cavab vərəqəsini" boş təhvil versəniz, sizin imtahan nəticələriniz ləğv olunacaqdır.
	Yapon dilini bilməyən şəxslər də yapon dili imtahanında iştirak etməlidir?	Bəli, yapon dilini bilməyən şəxslərin də yapon dili imtahanında iştirakı vacibdir. İmtahanda olan "Cavab vərəqəsini" doldurmağınız vacib şərtlərdən biridir. Eynilə, ingilis dilini bilməyən şəxslərin də ingilis dili imtahanında iştirakı gərəkdir.

	Yapon dilini heç bilmirəm. Yapon dili imtahanımın nəticəsi seçimlərə təsir edəcəkmi?	Bəli, cüzi də olsa təsir edə bilər. Yapon hökuməti mümkün qədər Yaponiyaya maraq göstərən şəxslərin bu təqaüdlə təhsil almasını istədiyi üçün, yapon dilini az da olsa bilməyiniz sizin motivasiyanızı büruzə verə bilər. Lakin, hər hansısa iki imtahandan birindən (yapon dili və ingilis dili imtahanı) kifayət qədər bal toplamağınız əsas və vacib məqamdır.
	Mənim TOEFL/ IELTS üzrə sertifikatlarım vardır. Yenə də ingilis dili imtahanında iştirak etməliyəm?	Bəli, TOEFL/ IELTS sertifikatlarınız olsa da belə, ingilis dili imtahanında iştirakınız vacibdir. Sizin dil bacarığınızın qiymətləndirilməsi yazılı dil imtahanı əsasında olacaqdır.
	Keçmiş illərin imtahan suallarına haradan nəzər sala bilərəm?	https://www.studyinjapan.go.jp/en/planning/scholarship/application/examination.html ☆ *İmtahandan öncə keçmiş illərin imtahan suallarına nəzər salmağınız vacibdir. Öyrəşmədiyiniz imtahan sistemi olduğu üçün mütləq şəkildə suallarla tanış olmağınız lazımdır!*
	İmtahana özümlə nə gətirməliyəm?	İmtahana özünüzlə *yazı üçün lazım olan bütün ləvazimatları* (qələm, karandaş, pozan, karandaş yonan və s.) gətirməyiniz xahiş olunur. *Qol saatı* da olması məsləhətlidir. *Su* da gətirə bilərsiniz. Lakin, *lüğətdən* istifadəyə icazə verilməyəcəkdir.
	İmtahandan sonra ballar açıqlanacaq?	Xeyr, imtahan balları açıqlanmır. Eyni zamanda, imtahandan keçməmə səbəbləri də açıqlanmayacaqdır.
	İmtahan günündə Azərbaycanda ola bilməyəcəyəm. Olacağım ölkədəki Yaponiya səfirliyinin imtahanında iştirak edə bilərəm?	Seçim imtahanını yalnız vətəndaşı olduğunuz ölkədəki Yaponiya səfirliyində verə bilərsiniz. Odur ki, imtahan zamanı məhz Yaponiyanın Azərbaycandakı səfirliyində olmağınız gərəkdir.
Yazılı imtahan nəticələrinin səfirlik tərəfindən elan olunması	Səfirlik yazılı imtahanın nəticələrini imtahandan bir neçə gün sonra (dəqiq tarix hələ məlum deyil) e-**mail vasitəsilə** müraciətçilərə açıqlayacaq. *Qeyd 1:* Adətən bütün imtahan iştirakçılarına (müvəffəq olmuş və imtahandan keçməmiş şəxslər) maillə məlumat verilir. *Qeyd 2:* "Müraciət formasında" qeyd etdiyiniz e-mail ünvanlarının düzgün və oxunaqlı olmasına xüsusi diqqət yetirməyinizi xahiş edirik.	
İmtahandan keçən şəxslərin qalan sənədləri təhvil verməsi **SON TARİX: (18 sentyabr)**	İmtahandan müvəffəq olmuş şəxslər **18 sentyabr (cümə), 2020-ci il** tarixinədək qalan sənədləri səfirliyə təqdim etməlidir. *Qeyd 1:* Bu sənədlər haqqında daha ətraflı məlumat üçün **"C) Müraciət üçün lazım olan sənədlər"** bölməsində "İmtahandan sonra təhvil verilməli sənədlər" hissəsinə nəzər sala bilərsiniz.	

Müsahibə **23 sentyabr**	Tarix: 23 sentyabr (çərşənbə) Saat: dəqiq saat müsahibə mərhələsinə keçmiş şəxslərə daha sonra bildiriləcəkdir. Məkan: Yaponiya səfirliyi, 5-ci mərtəbə, Mədəniyyət və Məlumat otağı ☆ Məkan və tarix dəyişə bilər deyə, öncədən anlayışınızı xahiş edirik. *Qeyd:* Müsahibə ingilis və ya yapon dilində olur. **Müsahibə zamanı diqqət yetirməli məqamlar:** • Sizin dil biliklərinizin Yaponiyada təhsil üçün kifayət olub-olmamasına diqqət yetiriləcək • Yaponiya və yapon mədəniyyətinə marağınız, yapon dilini öyrənməyə güclü istəyinizi büruzə vermək və dili öyrənmək üçün konkret hansı üsullardan istifadə etdiyinizi və ya etməyi planlaşdırdığınızı izah etməyiniz müsahibənin nəticələrinə müsbət təsir göstərə bilər. • Niyə məhz Yaponiyada, niyə məhz seçdiyiniz ixtisas üzrə təhsil almaq istəməyinizin səbəbi • Təhsil almaq istədiyiniz universitet və fakültə haqqında məlumatlı olmaq • Tədqiqat planınız haqqında ərtaflı izahatı bacarmaq və tədqiqat sahənizə aid olan digər suallara cavab verə bilmək • Niyə məhz bu mövzunu seçməyinizin səbəbi • Təhsildən sonrakı planlarınız. Xüsusilə Yaponiyada alacağınız təhsil nəticəsində iki ölkə arasında gələcək əlaqələrin genişlənməsinə nə kimi töhfə verə biləcəyiniz haqqında
1-ci mərhələ- Səfirlik mərhələsinin nəticələrinin elan olunması (2 oktyabr)	**Nəticələrin elan olunması 2 oktyabr tarixinə** nəzərdə tutulmuşdur. *Qeyd 1:* Adətən nəticələr sizin "Müraciət formasında" qeyd etdiyiniz e-mail və ya telefon vasitəsilə bildirilir. Odur ki, həmin məlumatların yalnış olmamasına xüsusi diqqət yetirməyinizi xahiş edirik. *Qeyd 2:* İmtahandan keçməmə səbəbləri və ya imtahan balları açıqlanmayacaqdır.
BU MƏRHƏLƏDƏN SONRAKI ADDIMLAR YALNIZ YAZILI İMTAHANDAN MÜVƏFFƏQ OLANLARA ŞAMİL OLUNACAQ	
1-ci seçim mərhələsindən *(Səfirlik Seçim mərhələsi)* müvəffəq olmuş şəxslərin Qəbul almaq üçün Yaponiya universitetləri ilə əlaqə saxlaması **SON TARİX:** ***20 noyabr***	***1-ci seçim mərhələsindən müvəffəq olan şəxslərin*** *Yaponiya universitetləri ilə əlaqə saxlayaraq qəbul almaları (onları qəbul edəcək professor axtarmaqları) üçün verilən müddət* Bu müddət ərzində müraciətçi seçdiyi ixtisasa uyğun təhsil verən universitetlərlə **mail vasitəsilə** əlaqə saxlayaraq onlardan qəbul almağa çalışmalı və qəbul aldığı universitetlərdən **"Qəbul sənədi"** göndərmələrini xahiş etməlidir. *Qeyd 1: Səfirlik tərəfindən universitetlərə müraciətin edilmə qaydası və müraciət zamanı göndərməli sənədlər barədə ətraflı izahat veriləcəkdir.* **Universitetlərlə qəbul məqsədiylə əlaqə üçün son tarix:** *20 noyabr, 2020-ci il (Yaponiya vaxti ilə)* *Bu tarixdən sonra universitet ilə əlaqə saxlamaq olmaz (ilk dəfə qəbul ilə bağlı mail yazılması)* *Qeyd 2:* İxtisasınıza uyğun yapon universitetləri və fakültələri ilə əlaqə saxlamaq üçün sizə səfirlik tərəfindən **"Yaponiya universitetlərinin xarici tələbə qəbulu şöbələrinin siyahısı"** təqdim olunacaq. Yalnız həmin siyahıdakı əlaqə vasitələri (email və ya nömrə) ilə universitetlərlə əlaqə saxlaya bilərsiniz. Qəbul almaq istədiyiniz professora və ya müəllimə birbaşa mail yazmamağınız xahiş olunur. Eyni zamanda, qəbul almaqdan başqa məqsədlə (ixtisas və ya tədqiqat mövzusu ilə bağlı məsləhət və s.) universitetlərlə əlaqə saxlamaq olmaz.

	Qeyd 3: Bundan əlavə, professor və universitetləri axtarmaqda sizə aşağıdakı mənbələr də yardımçı ola bilər. https://researchmap.jp/ (yapon dilində) https://researchmap.jp/?lang=en (ingilis dilində) https://www.jasso.go.jp/en/study_j/search/index.html (ingilis dilində) https://jglobal.jst.go.jp/en (ingilis dilində) https://www.jpss.jp/en/search/ (ingilis dilində) https://www.jpss.jp/ja/search/ (yapon dilində) Göstərilən tarix *(20 noyabr) universitetlərlə əlaqə saxlamaq üçün olan son tarixdir*, universitetdən qəbul cavabının verilməsinin son tarixi deyildir. Universitetlərə tələbələrin qəbul cavabını düşünmələrinə 1 ayadək müddət verildiyi üçün, müraciət etdikdən sonra universitetin dərhal qərar verməsini tələsdirməməyiniz xahiş olunur. **Universitetlərin "Qəbul məktubunu" sizə göndərməsi (skan şəklində qəbul olunur) üçün son tarix: 25 dekabr, 2020-ci il (cümə- Yaponiya vaxtı ilə).**
Universitetlərdən alınmış *"Qəbul sənədləri"* və *"Təhsil almaq istədiyiniz Universitetlərə dair Seçim Forması"* sənədinin səfirliyə təqdim olunması **SON TARİX: 4 yanvar, 2021-ci il**	**Bu sənədlərin səfirliyə təqdim olunması üçün son tarix: 4 yanvar, 2021-ci il** olaraq planlaşdırılır.Bu tarix dəyişilə bilər. **1-ci sənəd:** **1)** Müraciətçilərin qəbul aldıqları universitetlərdən ***"2021-ci il üçün Qəbul sənədi"* ("Letter of Provisional Acceptance for 2021") qəbul sənədləri** Həmin sənədlərin **skan versiyasını** (mümkün olarsa orijinallarını da təqdim edə bilərsiniz) Yaponiya səfirliyinə təqdim etmək gərəkdir *(skan sənədi maillə göndərmək)* **VACİB QEYD: Maksimum qəbul olunan "Qəbul sənədi" sayı: 2 ədəd** (öncəki illərdə 3 ədəd idi) **2-ci sənəd:** **2) "Təhsil almaq istədiyiniz universitetlərə dair seçim forması"** (*yekun versiyasını*) sənədi *Qeyd:* bu sənədin **orijinalını** təqdim etmək lazımdır. Həmin sənəddə qəbul aldığınız universitetləri öz istəyinizə uyğun **"1-ci seçim"**, **"2-ci seçim"** və **"3-cü seçim"** olaraq istədiyiniz sıralanma ilə qeyd etməyiniz lazımdır. **VACİB QEYD:** Yalnız 2 universitetdən rəsmi "Qəbul sənədi" olsa da, 3-cü seçiminiz olaraq rəsmi qəbul almadığınız universiteti qeyd edə bilərsiniz.
2-ci seçim mərhələsi **MEXT (Yaponiya Baş İdarəsi) Seçim Mərhələsi** **(fevral-mart, 2021-ci il)**	Bu mərhələdə artıq sizin bütün sənədlər səfirlik tərəfindən MEXT-ə göndərilir və səfirlik tərəfindən MEXT-ə tövsiyə olunursunuz. Bu müddət ərzində MEXT və universitetlər tərəfindən sizin namizədliyinizə baxış və yekun qərarın verilməsinə dair müzakirələr aparılır. İlk öncə "Təhsil almaq istədiyiniz universitetlərə dair seçim forması" sənədində qeyd olunmuş universitetlərlə sənəddə qeyd olunmuş sıralanmada əlaqə saxlanılır. Lakin, universitet seçimində yekun qərar MEXT tərəfindən verilir. *Qeyd:* Səfirlik seçim mərhələsindən keçmiş və MEXT-ə tövsiyə olunmuş bütün şəxslərin MEXT-in son baxış mərhələsindən keçməmək ehtimalı var. Bunun yekun nəticə olmadığını nəzərə almağınızı xahiş edirik. **Müddət:** fevral-mart ayları, 2021-ci il

Yekun qərar olaraq müvəffəq olan şəxslərin elan olunması (iyun, 2021-ci il)	Yekun nəticənin 2021-ci il iyun ayının sonlarına elan olunması planlaşdırılır. Nəticə müvəffəq olan müraciətçilərə səfirlik tərəfindən bildiriləcəkdir. Qalib gələn şəxslərə detallı prosedur bildiriləcəkdir.
Yaponiyaya yola düşmə ✈	Qalib gələn şəxslər MEXT və universitet tərəfindən qərarlaşdırılmış tarixdə Yaponiyaya yola düşücəklər. *Sentyabr- Oktyabr, 2021-ci il* **Qeyd:** Fövqəladə hallar baş verərsə, səfərin təxirə salınması və ya ləğv olunması mümkündür.

C) Müraciət üçün lazım olan sənədlər

※ **İlkin müraciət üçün lazım olan sənədlər:** *Səfirliyə birbaşa yaxınlaşaraq təhvil verməyiniz* gərəkdir. Bu barədə ətraflı məlumat **4-cü səhifədə** qeyd olunmuşdur.

※ **İmtahan mərhələsindən keçmiş şəxslərin** qalan sənədləri müsahibə mərhələsinədək səfirliyə təqdim etməklərdirlər.

VACİB: Təhvil verilən sənədlər geri qaytarılmır.

İlkin müraciət üçün lazım olan sənədlər (son tarix: 4 sentyabr, 2020-ci il saat 17:00)

Hər bir sənəddən **1 nüsxə** təqdim etmək lazımdır.

Sənədlərin siyahısında hər bir sənədin **"Mütləq sənəd"** və ya **"Mütləq olmayan sənəd"** olması mötərizədə qeyd olunmuşdur.

Müraciət forması	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** ※ Sənədi əllə yazdığınız halda **çap hərflərlə (block letters)** yazmağınız xahiş olunur. Silinən qələmdən istifadə etmək olmaz. ※ *İmza hissəsidən başqa* sənədin bütün digər məlumatlarını kompüterdə yaza bilərsiniz. Həmin zaman yazdığınız formanı çap edib sonra qələmlə imzanızı atmağınız gərəkdir. ※ Bu sənədi stepler ilə tikmək lazım deyil. Çap zamanı formatın dəyişməməsinə diqqət yetirin.Sənədə əlavə vərəqlər əlavə etdiyiniz halda bunu qeyd etməyiniz gərəkdir. *Qeyd 1:* "Müraciət formasında" ad və familiyanızın mütləq şəkildə xarici pasportunuzda qeyd olunduğu formada daxil edilməsi gərəkdir. *Qeyd 2:* "Müraciət formasına" şəkli (3.5 x 4.5 sm) yapışdırmağınız vacibdir. Şəklin arxasında ad, familiya və milliyətinizi yazmağı unutmayın. (Ağ fonda, son 6 ay ərzində çəkilən şəkil olmalıdır.) *Şəkli yapışdırmadan təhvil verilən sənədlər qəbul olunmayacaqdır.* Eyni zamanda, elektron şəklinizi müraciət formasının müvafiq qrafasına əlavə edib, sənədi rəngli çap edib təqdim etmək də mümkündür. *Qeyd 3:* Sənədin 1-ci səhifəsinin 6-cı punktunda qeyd olunan "Yaşınız" ("Date of Birth"- "Age") bölməsində 2021-ci ilin aprel ayının 1-i tarixində olacağınız yaşı qeyd edin.

Qeyd 4: “Müraciət formasında” ən vacib məqamlardan biri **20-ci punktdakı “Yaponiyada təhsilə motivə edən səbəblər”** *(Motivation for Studying in Japan)* bölməsidir. Burada Yaponiyaya olan marağınız, təhsil almaq istəyiniz və səbəbləri, Yaponiyadakı təhsildən sonra əldə edəcəyiniz bilik və təcrübəni hər iki ölkə uçün yararlı şəkildə necə istifadə etməyi düşündüyünüz haqqında ətraflı qeyd etməyiniz xahiş olunur. Bu punktdakı hər 3 suala cavab verməyiniz gərəkdir. *Əgər 3 sualdan hər hansısa biri cavablandırılmazsa, seçimlərdən müvəffəq olmayacaqsınız.*

Qeyd 5: Xüsusilə, “Academic record”- “Akademik təcrübəniz” haqqında olan hissədə diqqətli olmağınızı xahiş edirik. 11 illik təhsilinizi eyni məktəbdə alsanız da belə, bütün təhsilinizi *ibtidai, ümumi orta* və *tam orta təhsil* olmaqla 3 hissəyə bölüb yazmağınız gərəkdir. Eyni zamanda, sonda təhsil aldığınız illərin ÜMUMİ sayını (məsələn, **15 il**) qeyd etməyiniz vacibdir.

Məsələn,
İbtidai təhsil (4 il): 1,2,3 və 4-cü siniflər
Ümumi orta təhsil (5 il): 5,6,7, 8 və 9-cu siniflər
Tam orta təhsil (2 il): 10 və 11-ci siniflər

“Akademik təcrübəniz” ilə bağlı hissənin doldurulma nümunəsi:

11. 学歴 Academic record

INSTRUCTIONS

1. 初等教育から最新の教育課程まで正規生として修学した課程のみ記入すること。幼稚園・保育所教育は記入不要。
2. 「卒業年月」は学校の公式な卒業年月を記入すること。(例：学校の学事暦が10月入学9月卒業の場合、最後の8～9月が休暇の場合も「卒業月」欄は「9月」となる。)
3. 最終学歴が卒業見込の者は、「卒業年月」には卒業見込年月を記入し、「卒業見込」及び卒業した際に取得見込の学位を選択すること。
4. 「卒業状況」を「その他」と選択した場合は、具体の状況を「特記事項」欄に記入すること。(例：退学、休学中)
5. 「大学予備教育」は後期中等教育に含まれる。
6. 「大学入学資格試験」に合格している場合には、その旨「特記事項」欄に記入すること。
7. 「飛び級」をしている場合には、その旨を「特記事項」欄に記入すること。(例：後期中等教育－3年次を飛び級により短期卒業)
8. 住居の移転や大学の再入学等を理由に、同教育課程で複数の学校に在籍していた場合は、同じ欄に複数の学校の在籍を記載すること。
9. 下記に書ききれない場合は、別紙に記入することも可能。その場合は、別紙に記入する旨を明記すること。

1. Write your record from primary education (elementary school) to most recent educational level attended only as a full-time student. Exclude kindergarten education and nursery school education.
2. Write the official graduation year and month in the space of "To: yyyy/mm". (ex. In case of October intake and September graduation under the school's academic calendar, put "9 (September)" in the space of "mm" as an official graduation month although the term from August to September is a summer break.)
3. For those whose status is "Expected to graduate", write expected year and month of graduation in the space of "To: yyyy/mm" and choose "Expected to graduate" and suitable degree expected to obtain upon graduation.
4. If the applicant chooses "Other status" in the Status, indicate the detail of status in the Remarks column. (ex. Withdrawal, leave of absence)
5. Preparatory education for university admission is included in upper secondary education.
6. If the applicant has passed the university entrance qualification, indicate this in the Remarks column.
7. Any school years or levels skipped should be indicated in the Remarks column. Example: Upper secondary education - Skipped senior year for the early graduation.
8. If you attended multiple schools at the same level of education due to moving house or readmission to university, write all the schools in the same column.
9. You may use a separate piece of paper if the space below is insufficient. In such a case, please indicate that the information is on a separate page.

教育段階 Educational level	学校名 School name	所在地 Location	入学及び卒業(見込)年月 Year & month of enrollment & graduation (expected to graduate)	修学年数 Period of schooling attended	卒業状況 Status	取得(見込)学位 Degree obtained or expected to obtain
初等教育 (小学校) Primary Education (Elementary School)	SCHOOL No.500	州・省 State/Province: AZERBAIJAN; 市・町 City/Town: BAKU	入学 From 1998 年 yyy 9 月 mm; 卒業 To 2002 年 yyy 6 月 mm	4 年 yrs		
前期中等教育 (中学校) Lower Secondary Education(Middle School/Junior High School)	SCHOOL No.500	州・省 State/Province: AZERBAIJAN; 市・町 City/Town: BAKU	入学 From 2002 年 yyy 9 月 mm; 卒業 To 2006 年 yyy 6 月 mm	4 年 yrs		
後期中等教育 (高校) Upper Secondary Education ((Senior) High School)	SCHOOL No.500	州・省 State/Province: AZERBAIJAN; 市・町 City/Town: BAKU	入学 From 2006 年 yyy 9 月 mm; 卒業 To 2009 年 yyy 6 月 mm	3 年 yrs		
高等教育 (大学学部) Tertiary(Higher) Education (Undergraduate)	AZERBAIJAN OPEN UNIVERSITY	州・省 State/Province: AZERBAIJAN; 市・町 City/Town: BAKU	入学 From 2009 年 yyy 9 月 mm; 卒業 To 2013 年 yyy 7 月 mm	4 年 yrs	☐ 卒業 Graduated; ☐ 卒業見込 Expected to graduate; ☐ その他 Other status	☑ 学士 Bachelor-level
高等教育 (大学院) Tertiary(Higher) Education (Graduate)	AZERBAIJAN SOCIAL UNIVERSITY	州・省 State/Province: AZERBAIJAN; 市・町 City/Town: BAKU	入学 From 2018 年 yyy 9 月 mm; 卒業 To 2020 年 yyy 7 月 mm	2 年 yrs	☐ 卒業 Graduated; ☐ 卒業見込 Expected to graduate; ☐ その他 Other status	☑ 修士 Master-level; ☐ 博士 Doctor-level
高等教育 (大学院) Tertiary(Higher) Education (Graduate)		州・省 State/Province: ; 市・町 City/Town:	入学 From 年 yyy 月 mm; 卒業 To 年 yyy 月 mm	年 yrs	☐ 卒業 Graduated; ☑ 卒業見込 Expected to graduate; ☐ その他 Other status	☐ 修士 Master-level; ☐ 博士 Doctor-level
2021年4月1日時点の通算の学校教育修学年数 Total years of schooling attended as of April 1, 2021				17 年 yrs		
特記事項 Remarks	UNDERGRADUATE AND GRADUATE EDUCATION WAS FULLY ENGLISH-TAUGHT EDUCATION					

“Müraciət forması” sənədi Excel formatında olduğu üçün sənədin çapı zamanı bəzi problemlərin olması ehtimalı vardır. Sənədi çap edən zaman “Çap ayarları” menyusundan sənədin çap formatını dəyişərək düzgün şəkildə (6 səhifə) çap edə bilərsiniz. Çap (print) düyməsini basdıqdan sonra “Səhifə qurmaq” (Page Setup) hissəsində “Ölçü” (Scaling) bölməsində “Tənzimləmə” (Adjust) faizinin 80%-dən çox olmamasına diqqət yetirin. 80% olarsa, sənəd formatında dəyişiklik olmadan çap edə bilməlisiniz. Çapla bağlı və ya sənədlə bağlı heç cür həll edə bilmədiyiniz problem olarsa, bizimlə məsləhətləşə bilərsiniz.

Təhsil almaq istədiyi universitetlərə dair seçim forması *(ilkin versiyası)*	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** Bu sənədi 2 dəfə təqdim etmək lazım olacaqdır: **1)** İlk dəfə **ilkin versiya olaraq 4 sentyabradək təhvil verilməli sənədlərlə birgə** təqdim etməyiniz lazımdır. *(İlkin versiya)* **2)** Digər mərhələ isə **yalnız Səfirliyin 1-ci Seçim Mərhələsindən Keçən şəxslərə** şamil olunacaqdır. Bu mərhələ haqqında öncəki səhifələrdə *(səhifə 8)* qeyd olunmuşdur. ***İlkin versiya:*** Sənəddə müraciətçilər Yaponiyada təhsil almağı arzuladıqları universitetlərin adlarını *3 seçim* olaraq ("1-ci seçim", "2-ci seçim" və "3-cü seçim") qeyd edirlər. Bu mərhələdə müraciətçi birbaşa universitetlərlə əlaqə saxlayıb qəbul almır, sadəcə olaraq arzuladığı universitetləri istəyinə uyğun sıralanmada qeyd edir. Bu mərhələdə MÜVƏQQƏTİ olaraq təqdim olunan sənəd hesab bolunur. ✓ **Müsahibə zamanı** sizdən seçim etdiyiniz (arzuladığınız) universitetlər haqqında soruşula bilər. ***Yekun versiya:*** Səfirliyin bütün seçim prosesindən (1-ci seçim mərhələsi) uğurla keçmiş şəxslər Yaponiya universitetləri ilə əlaqə saxlayaraq qəbul alacaqlar. Son olaraq **"Qəbul məktubları" aldıqları universitetləri** bu sənəddə qeyd edib son versiyanı təhvil verməlidir. Bu versiyanı təqdim etmək təxminən **dekabr- yanvar aylarına** təsadüf edəcəkdir.
Tədqiqat Planı	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** *"Tədqiqat planı"* mümkün qədər detallı olmalı, sizin araşdırma ilə bağlı konkret planlarınızı, tədqiqat metodologiyası və s. əks etdirməlidir. Tədqiqat planında niyə məhz müəyyən mövzunu seçməyinizi, niyə məhz Yaponiyada təhsilinizi düşünməyinizi də detallı şəkildə göstərməyiniz lazımdır. *Qeyd 1:* Sənədi əllə yazdığınız halda **çap hərflərlə (block letters)** yazmağınız xahiş olunur. Silinən qələmdən istifadə etmək olmaz. *Qeyd 2:* Bu sənədin formatına görə *2 səhifə* olması lazımdır. Lakin, öz tədqiqat planınızı daha ərtaflı yazmağınız üçün əlavə vərəqlər istifadə edə bilərsiniz (birüzlü və ya ikiüzlü çap olar). Minimum səhifə sayı 2 səhifə olsa da, maksimum səhifə sayı üçün xüsusi göstəriş yoxdur. *Qeyd 3:* Bu sənəd seçimlərdən müvəffəq olacağınız təqdirdə **universitetlərdən qəbul almaq üçün ən vacib sənədlərdən biridir**. 1-ci seçim mərhələsindən keçdiyiniz zaman sənədi müxtəlif universitetlərə göndərməyiniz lazım olacaqdır. Odur ki, sənəddə hər hansısa konkret bir universitetdə təhsil almaq istədiyinizi qeyd etməməyi məsləhət görürük. Sizin təhsil almaq istədiyiniz 1-ci seçiminiz olan universitet sizi qəbul etməzsə, eyni məzmunlu "Tədqiqat Planı" sənədini digər universitetlərə də göndərməli olacaqsınız.
Bitirdiyiniz Universitetdən Qiymət vərəqəsi	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** ***1) İlkin mərhələdə "Qiymət vərəqəsinin" tərcümə və təsdiq olunmamış (azərbaycan dilində) versiyasını təqdim edə bilərsiniz.*** ***2) İmtahan mərhələsindən keçdikdən sonra notarisuda tərcümə və təsdiq olunmuş şəkildə təqdim etməyiniz gərək olacaqdır.***

	"Qiymət vərəqəsi" ("Transcript") sənədi son bitirdiyiniz və ya bitirəcəyiniz universitetin (bakalavr və ya magistratura) hər bir təhsil ilinin qiymətlərini, ortalama balını (GPA) və balın hesablama sistemini əks etdirən sənəd olmalıdır. *Vacib qeyd:* **a)** ***Son təhsil Bakalavr təhsili olan şəxslər (universiteti bitirmiş şəxslər):*** universitetdəki bakalavr təhsilinin *"Qiymət vərəqəsi"* (Diploma Əlavə) ***b) Son təhsil Magistr Təhsili olan şəxslər (magistraturanı bitirmiş şəxslər):*** həm bakalavr, həm də magistr təhsilinin "Qiymət vərəqəsi" (Diploma Əlavə) **c)** ***Hal-hazırda universitetdə Bakalavr təhsili alan tələbələr:*** indiyə qədərki bakalavr təhsili dövrünə aid müvəqqəti "Qiymət vərəqəsi" (seçimlərdən müvəffəq olarsa, "Qiymət vərəqəsi" – "Diploma Əlavə" sənədinin yekun versiyasını təqdim etmək lazım gələcəkdir) ***d) Hal-hazırda universitetdə Magistratura pilləsində təhsil alan tələbələr:*** bakalavr üzrə "Qiymət Vərəqəsi" və magistratura təhsilində indiyə qədərki təhsil dövrünə aid "Qiymət vərəqəsi" ***e) Hal-hazırda universitetdə Doktorantura pilləsində təhsil alan tələbələr:*** bakalavr üzrə "Qiymət vərəqəsi", magistratura üzrə "Qiymət vərəqəsi" və doktorantura təhsilində indiyə qədərki təhsil dövrünə aid "Qiymət vərəqəsi" ***Qeyd:*** Əgər sizin "Transcript" sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir nüsxədirsə, orijinal sənədin surətini təqdim edə bilərsiniz. Proses zamanı MEXT həmin sənədin surətinin təsdiq olunmasını tələb edə bilər (universitet tərəfindən təsdiq olunması). *Təhvil verilən sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxədə olan orijinal sənədinizi bizə təhvil verməyin.*
Bitirdiyiniz Universitetin Diplomu	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** **Bu sənədin ilkin versiyası bu mərhələdə təqdim olunmalıdır.** **Notariusda tərcümə və təsdiq olunmuş versiyası isə YAZILI İMTAHAN mərhələsindən keçdikdən sonra təhvil verilə bilər.** **a)** ***Son təhsil Bakalavr təhsili olan şəxslər (universiteti bitirmiş şəxslər):*** Bakalavr Diplomu ***b) Son təhsil Magistr Təhsili olan şəxslər (magistraturanı bitirmiş şəxslər):***həm Bakalavr, həm də Magistr Diplomu **c)** ***Hal-hazırda universitetdə Bakalavr təhsili alan tələbələr:*** bu il universiteti bitirəcəyinə dair **"Arayış"** ***d) Hal-hazırda universitetdə Magistratura pilləsində təhsil alan tələbələr:***Bakalavr Diplomu və Magistraturanı bu il bitirəcəyi haqqında universitetdən **"Arayış"** ***e) Hal-hazırda universitetdə Doktorantura pilləsində təhsil alan tələbələr:*** Bakalavr Diplomu, Magistr Diplomu və Doktoranturanı bu il bitirəcəyi haqqında **"Arayış"** *Qeyd:* Əgər sizin "Diplom" sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir nüsxədirsə, orijinal sənədin sadəcə surətini təqdim edə bilərsiniz. Proses zamanı MEXT həmin surəti təsdiq etməyinizi tələb edə bilər (universitet tərəfindən təsdiq olunması). Təhvil verilən sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxədə olan orijinal sənədinizi bizə təhvil verməyin.
Universitetdən Tövsiyə məktubu	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** Tövsiyə edən şəxs kim olmalıdır? — Hal-hazırda təhsil aldığınız və ya ən son bitirdiyiniz universitetin direktoru, dekan, sizin elmi rəhbər və ya müəlliminiz ola bilər.

	Tövsiyə məktubu üçün məhz təqdim olunan formatı istifadə etmək lazımdır?	Məktubun formatı sadəcə bir nümunədir. Digər rəsmi sənəd formatları və ya rəsmi blankda tövsiyə edən şəxsin imzası olan məktublar da qəbul olunacaqdır.
	Tövsiyə məktubunu tədqim etmək üçün ən düzgün forma hansıdır?	Sizi tövsiyə edəcək şəxsə məktubu zərfə yerləşdirib, üzərində imza atıb sizə təhvil verməsini xahiş edə bilərsiniz. Öncə həmin formaya öz ad və familiyanızı yazıb zərf ilə birlikdə tövsiyə edəcək müəllimə ötürməyiniz xahiş olunur. Tövsiyə məktublarının sizin tərəfinizdən oxunması qadağandır.
	Tövsiyə məktubunu xaricdə olan müəllimdən xahiş etməyi düşünürəm. Bu halda sənədi hansı formada təqdim edə bilərəm?	**1.** Tövsiyə edəcək şəxsdən həmin sənədin əslini sizə *poçt vasitəsilə* göndərməyini xahiş edə bilərsiniz. Həmin sənədi açmadan səfirliyə təqdim etməyiniz lazım olacaqdır. **2.** Lakin, tövsiyə edəcək şəxs məktubu sizə göndərə bilməzsə, onun skan formasını səfirliyin email ünvanına göndərə bilər. Bu zaman sənədin mütləq şəkildə rəsmi blankda olması və həmin şəxsin imzası (elektron imza) olması gərəkdir. Həmin şəxs sənədi PDF formatında hazırlayaraq skan şəklində səfirliyin **culture-info@bk.mofa.go.jp** ünvanına (maildə müraciətçinin adını da maildə qeyd etməklə) göndərə bilər.
İş yerindən tövsiyə məktubu	1 nüsxə orijinal **(MÜTLƏQ OLMAYAN SƏNƏD)** ***Yalnız hal-hazırda çalışan şəxslər üçün MÜTLƏQ SƏNƏDDİR.*** Tövsiyə məktubu sadəcə göstərilmiş nümunə şəklində deyil, digər formatlarda (rəsmi blankda tövsiyə edən şəxsin imzası olan və s.) da qəbul olunacaqdır.	
Diplom işinin annotasiyası **ABSTRACT**	1 nüsxə orijinal **(MÜTLƏQ OLMAYAN SƏNƏD)** ***Yalnız müvafiq sənədləri olan şəxslər*** Yalnız diplom işi və ya hansısa dissertasiya/ məruzə yazmış şəxslər onun qısa icmalını (ABSTRACT) təqdim edə bilərlər. Eyni zamanda, çap olunmuş məqaləniz olarsa, onu da təqdim edə bilərsiniz. *"Müraciət forması" sənədinin 13-cü punktunda "Siz nə vaxtsa tezis yazmısınızmı" sualına "BƏLİ" cavabı vermiş şəxslər mütləq şəkildə ANNOTASİYA sənədini təqdim etməlidir.* *Qeyd 1:* Münsiflər heyəti sizi tanımadığı üçün hansısa məqaləniz, məruzə və ya dissertasiyanız onlara sizin akademik bacarığınızı daha yaxşı anlamağa kömək edə bilər. *Qeyd 2:* Bütün annotasiyaların birinci səhifəsində ad və familiyanızı qeyd etməyi unutmayın.	
Xarici pasportun şəkil olan səhifəsinin surəti	1 nüsxə surəti **(MÜTLƏQ OLMAYAN SƏNƏD)** *Yalnız xarici pasportu olan şəxslər*	
Dil bacarığınızı təsdiq edən sənəd	1 nüsxə surəti **(MÜTLƏQ OLMAYAN SƏNƏD)** *Yapon dili Bacarıq imtahanı (JLPT), TOEFL və ya IELTS sertifikatları olan şəxslər* sənədlərin surətini təqdim edə bilərlər.	

	Qeyd: əgər sertifikatı internetdən çap edirsinizsə, sizin ad və soyadınızın da qeyd olunduğu səhifəni çap edib təqdim etməyiniz xahiş olunur.
Digər *(İncəsənət sahəsi üzrə təhsil almaq istəyən şəxslər)*	1 nüsxə orijinal **(MÜTLƏQ OLMAYAN SƏNƏD)** *Yalnız incəsənət sahəsi üzrə təhsil almaq istəyən şəxslər* Öz əl işlərinin fotoşəkli (digital formada) və ya musiqi ifalarının audio yazısını elektron formatda təqdim etmələri xahiş olunur.

İmtahan mərhələsindən keçmiş şəxslərin təqdim etməli olduğu əlavə sənədlər
(12-18 sentyabr tarixləri arasında)

Bu sənədləri təqdim etmək üçün son tarix: 18 sentyabr (cümə)

Bu mərhələdə lazımdır:

A) İlkin mərhələdə təqdim etdiyiniz bəzi sənədlərin notariusda tərcümə və təsdiq olunmuş versiyasını təqdim etmək

1. Bitirdiyiniz Universitetdən Qiymət Vərəqəsi

İlkin mərhələdə təqdim olunmuş *Universitetin "Qiymət vərəqəsi"* sənədinin notariusda tərcümə və təsdiq olunmuş versiyasını təqdim etmək.

Qeyd: Təhsil pilləsindən asılı olaraq müraciətçilərin hansı sənədi təqdim etməli olduğu 12-ci səhifədə qeyd olunub.

2. Bitirdiyiniz Universitetin Diplomu

İlkin mərhələdə təqdim olunmuş *universitetdən "Diplom"* sənədinin notariusda tərcümə və təsdiq olunmuş versiyasını təqdim etmək.

Qeyd: Təhsil pilləsindən asılı olaraq müraciətçilərin hansı sənədi təqdim etməli olduğu 12-ci səhifədə qeyd olunub.

B) İlkin mərhələdə təqdim olunmayan yeni sənəd: ☜

Sağlamlıq haqqında arayış	1 nüsxə orijinal **(MÜTLƏQ SƏNƏD)** ※ *Sənəd yalnız linkdə qeyd olunan formatda doldurulub təhvil verilməlidir. Başqa formatlarda olan "Sağlamlıq haqqında Arayış" qəbul olunmayacaqdır.* ※ Sənəd ingilis dilində həkim tərəfindən tərtib olunmalı, üzərində həkimin imzası və xəstəxananın möhürü olmalıdır. ※ Sənədi dolduran zaman həkimdən sizin göstəricilərinizi *sənəddə tələb olunan ölçü vahidlərində* qeyd etməsini xahiş edin. *Qeyd:* Sənədin 7-ci bölməsində "Müraciətçini tövsiyə edirsinizmi?" hissəsinə mütləq **"YES"** qeyd olunmasına diqqət yetirin. Əks halda sizin sənəd qəbul olunmayacaqdır.	
	Arayışı haradan ala bilərəm?	Səfirlikdə arayışı hansı xəstəxanadan ala biləcəyiniz barədə məlumat yoxdur. Özünüzün uyğun xəstəxana axtarmağınız xahiş olunur.

	2-ci bölmədəki Rentgenlə bağlı hissədə Rentgen müayinəsinin şəklini də əlavə etmək lazımdır?	Xeyr, şəkli əlavə etməyə ehtiyac yoxdur. Şəkillə bağlı tarix və bütün lazımlı detalları qeyd etməyiniz yetərlidir.
D) Digər tez-tez soruşulan suallar		
Seçim zamanı nəticəyə ən çox təsir edən məqamlar hansılardır?	Sözsüz ki, yekun nəticə bütün göstəricilərinizin ümumiləşdirilməsi əsasında aparıldığı üçün hər bir detalın az və ya çox təsiri vardır. Təhvil verilən sənədlərin düzgün şəkildə doldurulması və məzmunu (xüsusilə, "Tədqiqat planı" sənədi), yazılı imtahandan toplanan bal və müsahibənin nəticəsi ümumi olaraq hesablanaraq müraciətçinin qiymətləndirilməsi həyata keçirilir. Keçmiş illərin imtahan suallarına nəzər salsanız daha effektiv nəticə əldə edə bilərsiniz: https://www.studyinjapan.go.jp/en/planning/scholarship/application/examination.html	
Mən hal-hazırda 4-cü kurs tələbəsiyəm. Bu il seçimlərdə iştirak edə bilərəm?	Bəli, həmin il məzun olmağınız şərtiylə müraciət edə bilərsiniz. Seçimlərdə müvəffəq olduqdan sonra məzun ola bilməyəcəyiniz təqdirdə proqramda iştirakınız ləğv olunacaqdır.	
Mən keçən ilki seçimlərdə iştirak etmişəm. Keçən ilki göstəricilər indiki seçimlərə təsir edəcəkmi?	Xeyr, əvvəlki illərin nəticələri yeni seçimlərə təsir etmir. Siz yalnız cari ildəki göstəricilərinizə görə qiymətləndirilirsiniz.	
Yapon dilini bilənlərə xüsusilə üstünlük verildiyini eşitmişəm. Bu elədirmi?	Xeyr, seçimlər zamanı sizin yapon dilli və ya ingilis dilli (təhsil dilinizi hansı dildə seçməyiniz) müraciətçi olduğunuza görə üstünlük verilməsi halları olmur. Seçimlərdə hər iki dil üzrə imtahan verəcək şəxslər bir-birinə rəqib olub, bərabər şərtlər altında qiymətləndirilir.	
Mən hal-hazırda başqa ölkədə yaşayan Azərbaycan vətəndaşıyam. Proqrama müraciət edə bilərəmmi?	Bəli, proqrama müraciət edə bilərsiniz. Lakin, Azərbaycandakı Yaponiya səfirliyinin keçirəcəyi yazılı imtahan və müsahibə mərhələsində mütləq şəkildə öz iştirakınız (həmin zaman Bakıda olmağınız) vacibdir.	
Xarici vətəndaşlar proqrama müraciət edə bilməzlərmi?	Xeyr, digər ölkələrin vətəndaşları Azərbaycandakı Yaponiya səfirliyi vasitəsilə müraciət edə bilməzlər. Həmin şəxslərin vətəndaşı olduqları ölkəyə qayıtmaqları və həmin ölkədəki Yaponiya səfirliyi/ konsulluğuna müraciət etmələri gərəkdir.	
Ailəmi özümlə apara bilərəmmi?	Ailə üzvlərinin də birlikdə getməsi mümkündür. Lakin, ailə üzvləri üçün təqaüddə heç bir əlavə məbləğ nəzərdə tutulmayıb və müxtəlif növ prosedurlardan keçmək gərəkdir. Xüsusi hallar istisna olmaqla, xarici tələbə ilk növbədə özü Yaponiyaya gedib hazırlıq gördükdən sonra ailə üzvünü Yaponiyaya çağırması nəzərdə tutulmuşdur.	

Seçim mərhələsindən uğurla keçəndən sonra dərhal Yaponiya vizası almaq olarmı?	Seçim mərhələsi uğurla başa çatdıqdan sonra dərhal Yaponiya vizası verilmir. Viza Yaponiya səfərinizin baş tutacağı tarixə yaxın tarixdə verilir. Nəzərinizə çatdırmaq istərdik ki, bu vizanı proqramda nəzərdə tutulmuş fəaliyyətlərdən kənar məqsədlər üçün istifadə etmək olmaz (məsələn, MEXT Proqramı üzrə təhsil üçün verilən viza ilə təhsil məqsədiylə getməzdən öncə turistik məqsədlə Yaponiyaya getmək)
Müraciət sənədlərini geri götürə bilərəmmi?	Xeyr, səfirliyə təqdim olunan sənədlər geri qaytarılmır. Odur ki, yalnız bir nüsxədə olan orijinal sənədlərinizi ("Diplom", "Diploma əlavə" və ya digər sənədləri) verməməyiniz xahiş olunur. Həmin orijinal sənədin surətinin rəsmi təsdiq olunmuş versiyasını (məsələn, universitet tərəfindən surətin həqiqi olduğunun təsdiq olunması və s.) tədqim edə bilərsiniz.
Yaponiyaya getdikdən sonra təqaüd elə ilk gündən veriləcək?	Xeyr, təqaüdün verilməsinə təxminən 1 aya yaxın zaman lazım olur. Siz Yaponiyaya getdikdən sonra sənədləşmə işləri və bank hesabınızın açılmasından sonra təqaüd sizin hesabınıza otuzdurulacaqdır. Odur ki, ilk ay üçün özünüzlə kifayət qədər (2000 ABŞ dolları) pul götürməyiniz məsləhətdir.
Yataqxana ilə təmin olunacağam?	Əksər universitetlərdə xarici tələbələr üçün məhdud sayda yataqxanalar və ya tələbələr üçün təklif olunan evlər olur. Yataqxanalar və ya tələbə evləri barədə məlumatı Yaponiyaya getməzdən öncə birbaşa universitetlə əlaqə saxlayaraq dəqiqləşdirə bilərsiniz. Qalma xərcləri tələbənin aylıq təqaüdündən ödənməlidir.
Proqram zamanı eyni zamanda işləyə bilərəmmi?	Siz Yaponiyaya Tələbə vizası statusunda gedəcəyiniz üçün sizin əsas fəaliyyətiniz təhsil olacaqdır. Odur ki, sizdən ilk növbədə daha çox dərslərinizə və təhsilinizə vaxt ayırmağınız və cidd-cədhlər yanaşmağınız gözlənilir. Lakin, İmmiqrasiya idarəsindən "Yaşama Statusu üzrə İcazə Verilən Fəaliyyətlərdən başqa Fəaliyyətlə Məşğul olmaq üçün İcazə" (Application for Permission to Engage in Activity other than that Permitted Under the Status of Residence Previously Granted) sənədini alaraq məhdud saatlarda çalışmağınız mümkündür.

E) Əlavə məlumat

Əlavə məlumat üçün Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi ilə əlaqə saxlaya bilərsiniz.

Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Mədəniyyət və Təhsil şöbəsi
Əlaqə nömrəsi: +994 12 490 7819 (daxili nömrə:2)
Elektron ünvan: culture-info@bk.mofa.go.jp

Qeyd 1: Səfirlikdə hal-hazırda distant iş rejimi tətbiq olunduğu üçün zənglərə cavab verilə bilməyəcəkdir. Suallarınızı mümkün qədər səfirliyin mail ünvanına yönləndirməyiniz xahiş olunur. Mailləri eyni zamanda info@bk.mofa.go.jp mail ünvanına da göndərə bilərsiniz.

Qeyd 2: Zəng etməzdən və ya mail yazmazdan əvvəl yazılanları diqqətlə oxumağınızı xahiş edirik. Sizi maraqlandıran suala cavab artıq qeyd olunmuş ola bilər.

Qeyd 3: Səfirliyə gəlməzdən öncə mail vasitəsilə gələcəyiniz günü və saatı qeyd etməyiniz və yalnız təsdiq emaili gəldikdən sonra səfirliyə yaxınlaşmağınız xahiş olunur.